# COP29-a ev sahibliyi ölkəmizin nüfuzunu yüksəldəcək

**Statistikaya əsasən, planetimizdə son yüz il ərzində havanın ill temperaturu 1 dərəcə artıb. Temperaturun 0,75 dərəcə artın son onilliyə təsadüf edir ki, bu da qlobal miqyasda sənayenin inkişafının genişlənməsi ilə əlaqələndirilir. Antropogen fəaliyyət zamanı atmosferə atılan hissəciklər və qazlar nəinki iqlim sferasında qlobal dəyişikliklərlə nəticələnir, həm də insan sağlamlığına birbaşa mənfi təsir göstərir.**

İqlim dəyişmələri ilə bağlı BMT-nin çağırışlarına qoşulması Azərbaycanın bu mövzuda çox məsuliyyətli ölkə olduğunun əyani göstəricisidir. Dövlətimiz daim ekoloji problemləri diqqətdə saxlamaqla bu işə öz töhfələrini verib.

**(davamı 7-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

COP29-un keçirilməsinin ölkəmizə həvalə edilməmişdən əvvəl dövlətimiz ekoloji problemlərlə ciddi məşğul olur və iqlim dəyişmələrinin mənfi fəsadlarını azaltmağa çalışır, ətraf mühitin mühafizəsinə ciddi əhəmiyyət verilir. "Əsrin müqaviləsi" imzalanandan bu günədək bütün neft əməliyyatları beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparılır. Ölkənin əsas investorları dünyanın aparıcı enerji şirkətləridir və sözsüz ki, hər kəs onların ətraf mühitə diqqət yetirdiyinin yaxşı bir nümunə olduğunu bilir.



Onu da nəzərə çatdıraq ki, hazırda ölkəmizdə işğaldan azad edilmiş ərazilərin bərpasında yeni yanaşmalar tətbiq edilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri müvəfəqiyyətlə davam etdirilir. Bu ərazilərdə "yaşıl enerji", "yaşıl kənd" təsərrüfatı, həmçinin təbiətə dost olan texnologiyaların tətbiqi ilə karbon neytrallığının təmin edilməsi əsas hədəflərdəndir. Qeyd edək ki, bütövlükdə Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat "yaşıl enerji" potensialı var. Həmçinin Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında Günəş enerjisi layihələri üçün texniki potensial 7200 MVt-dən artıq olaraq qiymətləndirilir. Onu da nəzərə çatdıraq ki, ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilib. Ümumilikdə, respublikamızın bərpaolunan enerji potensialı kifayət qədər böyükdür. Bu sahədə Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş potensialı 157 qiqavata bərabərdir.

Bütün bunlar onu göstərir ki, ölkəmiz iqlim dəyişmələri ilə mübarizədə fəal iştirak edir. Bu ilin noyabrında Bakıda keçiriləcək COP29 konfransına hazırlıq işləri gedir. Azərbaycan artıq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakını təsdiqləyən nümayəndə heyətləri üçün tarif portalını istifadəyə verib. COP29-un "X" sosial şəbəkəsində verilən məlumatda qeyd edilib ki, portal COP29 zamanı nümayəndə heyətlərinə göstəriləcək xidmətlərin logistikasını və planlaşdırılmasını optimallaşdırmaq üçün yaradılıb. Bu portal tədbir üçün zəruri olan mebel, audiovizual avadanlığın və birbaşa yayım xidmətlərinin icarəsi variantlarını müqayisə etməyə, həmçinin logistika əməliyyatlarını daha rahat və mütəşəkkil şəkildə həyata keçirməyə kömək edəcək.

Ölkəmiz iqlim dəyişmələri ilə mübarizə baxımından COP29-un uğurlu olmasına çox böyük təşəbbüs göstərir. Azərbaycanın dünyaya deyəcək sözü çoxdur. Ev sahibliyi etməyin üstünlüklərindən biri on minlərlə qonağın gəlməsi olacaq. Onlar iki həftə ərzində vəziyyəti qiymətləndirmək imkanı əldə edəcəklər. Beləliklə, dövlətimiz bu önəmli beynəlxalq konfransa ev sahibliyi etməklə dünya miqyasında öz nüfuzunu daha da yüksəldəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika.- 2024.- 20 avqust, №177 - S.7.